**Azərbaycan Respublikası Təhsil Nazirliyi (Bakı şəhəri, Xətai prospekti, 49) 2018-2019-cu tədris ilinə ümumtəhsil məktəblərinin XI sinifləri üçün dərslik komplektlərinin nəşrinin və nəşr üzərində müstəsna hüquqların satın alınması məqsədilə açıq tender (müsabiqə) elan edir.**

**Tender 19 lot üzrə keçirilir**

| Lot №si | Lotun adı | Lota daxil olan maketlər | Həcmi (səhifə və ya çap vərəqi ilə) |
|---|---|---|---|
| 1 | XI sinif üçün<br>"Azərbaycan dili tədris dili kimi" fənni üzrə dərslik komplekti | 1.1. dərslik<br>1.2. müəllim üçün metodik vəsait | 176-208<br>11-13 |
| 2 | XI sinif üçün<br>"Ədəbiyyat" fənni üzrə dərslik komplekti | 2.1. dərslik<br>2.2. müəllim üçün metodik vəsait | 176-208<br>11-13 |
| 3 | XI sinif üçün<br>"Русский язык tədris dili kimi" fənni üzrə dərslik komplekti | 3.1. dərslik<br>3.2. müəllim üçün metodik vəsait | 176-208<br>11-13 |
| 4 | XI sinif üçün<br>"Литература (Ədəbiyyat)" fənni üzrə dərslik komplekti (rus dilində) | 4.1. dərslik<br>4.2. müəllim üçün metodik vəsait | 176-208<br>11-13 |
| 5 | XI sinif üçün<br>"Azərbaycan dili dövlət dili kimi" fənni üzrə dərslik komplekti | 5.1. dərslik<br>5.2. müəllim üçün metodik vəsait | 176-208<br>11-13 |
| 6 | XI sinif üçün<br>"Riyaziyyat" fənni üzrə dərslik komplekti | 6.1. dərslik<br>6.2. müəllim üçün metodik vəsait<br>6.3. dərslik (rus dilində tərcümə)<br>6.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>6.5. dərslik (**gürcü dilində tərcümə)**<br>6.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | 288-320<br>18-20<br>224-240<br>14-15 |
| 7 | XI sinif üçün<br>"İnformatika" fənni üzrə dərslik komplekti | 7.1. dərslik<br>7.2. müəllim üçün metodik vəsait<br>7.3. dərslik (rus dilində tərcümə)<br>7.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>7.5. dərslik (**gürcü dilində tərcümə)**<br>7.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | 176-208<br>11-13 |
| 8 | XI sinif üçün "Azərbaycan tarixi" fənni üzrə dərslik komplekti | 8.1. dərslik<br>8.2. müəllim üçün metodik vəsait<br>8.3. dərslik (rus dilində tərcümə) | 176-208<br>11-13 |

| | | | |
|---|---|---|---|
| | | 8.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>8.5. dərslik (**gürcü dilində tərcümə)**<br>8.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | |
| 9 | XI sinif üçün<br>"Ümumi tarix" fənni üzrə dərslik komplekti | 9.1. dərslik<br>9.2. müəllim üçün metodik vəsait<br>9.3. dərslik (rus dilində tərcümə)<br>9.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>9.5. dərslik (**gürcü dilində tərcümə)**<br>9.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | 128-144<br>8-9 |
| 10 | XI sinif üçün<br>"Biologiya" fənni üzrə dərslik komplekti | 10.1. dərslik<br>10.2. müəllim üçün metodik vəsait<br>10.3. dərslik (rus dilində tərcümə)<br>10.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>10.5. dərslik (**gürcü dilində tərcümə)**<br>10.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | 176-208<br>11-13 |
| 11 | XI sinif üçün<br>"Coğrafiya" fənni üzrə dərslik komplekti | 11.1. dərslik<br>11.2. müəllim üçün metodik vəsait<br>11.3. dərslik (rus dilində tərcümə)<br>11.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>11.5. dərslik (**gürcü dilində tərcümə)**<br>11.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | 176-208<br>11-13 |
| 12 | XI sinif üçün<br>"Fizika" fənni üzrə dərslik komplekti | 12.1. dərslik<br>12.2. müəllim üçün metodik vəsait<br>12.3. dərslik (rus dilində tərcümə)<br>12.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə) | 176-208<br>11-13 |

| | | | |
|---|---|---|---|
| | | 12.5. dərslik (**gürcü dilində tərcümə)**<br>12.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | |
| 13 | XI sinif üçün"<br>Kimya" fənni üzrə dərslik komplekti | 13.1. dərslik<br>13.2. müəllim üçün metodik vəsait<br>13.3. dərslik (rus dilində tərcümə)<br>13.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>13.5. dərslik (**gürcü dilində tərcümə)**<br>13.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | 176-208<br>11-13 |
| 14 | XI sinif üçün<br>"İngilis dili əsas xarici dil kimi" fənni üzrə dərslik komplekti | 14.1. dərslik<br>14.2. müəllim üçün metodik vəsait | 192-216<br>12-13.5 |
| 15 | XI sinif üçün<br>"Alman dili əsas xarici dil kimi" fənni üzrə dərslik komplekti | 15.1. dərslik<br>15.2. müəllim üçün metodik vəsait | 192-216<br>12-13.5 |
| 16 | XI sinif üçün<br>"Fransız dili əsas xarici dil kimi" fənni üzrə dərslik komplekti | 16.1. dərslik<br>16.2. müəllim üçün metodik vəsait | 192-216<br>12-13.5 |
| 17 | XI sinif üçün<br>"Rus dili əsas xarici dil kimi" fənni üzrə dərslik komplekti | 17.1. dərslik<br>17.2. müəllim üçün metodik vəsait | 192-216<br>12-13.5 |
| 18 | XI sinif üçün<br>"Çağırışaqədərki hazırlıq" fənni üzrə dərslik komplekti | 18.1. dərslik<br>18.2. müəllim üçün metodik vəsait<br>18.3. dərslik (rus dilində tərcümə)<br>18.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>18.5. dərslik (**gürcü dilində tərcümə)**<br>18.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | 176-208<br>11-13 |
| 19 | XI sinif üçün<br>"Fiziki tərbiyə" fənni üzrə dərslik komplekti | 19.1. dərslik<br>19.2. müəllim üçün metodik vəsait<br>19.3. dərslik (rus dilində tərcümə)<br>19.4. müəllim üçün metodik vəsait (rus dilində tərcümə)<br>19.5. dərslik (**gürcü dilində tərcümə)**<br>19.6. müəllim üçün metodik vəsait (**gürcü dilində tərcümə)** | 176-208<br>11-13 |

I. Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət məsubiyyətindən asılı olmayaraq Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər. Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2016-cı il tarixli Sərəncamına əsasən icra hakimiyyəti orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən 2018-ci il 1 yanvar tarixinədək idxal mallarının (işlərinin, xidmətlərinin) satın alınması dayandırılmışdır.

II. Tenderdə dərslik komplektlərinin hazırlanması, eləcə də nəşr işləri sahəsində peşəkarlığı, təcrübəsi, texniki və maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi, etibarlılığı, satınalma müqaviləsi bağlamaq səlahiyyəti, ödəmə qabiliyyətli, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı olan, müflis elan olunmayan, ödənişə yönəlmiş girovu olmayan, əmlakı üzərində həbs qoyulmayan, Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəlikləri olmayan, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmayan, peşə fəaliyyəti ilə məşğul olması məhkəmə qaydasında qadağan edilməyən malgöndərənlər (podratçılar) iştirak edə bilərlər.

III. Tender «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir. Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və qiymətləndirilmə meyarları Əsas şərtlər toplusunda öz əksini tapır.

Tender iştirakçısı «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının

Qanunu, Əsas şərtlər toplusunun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri və texniki spesifikasiyalar və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və Əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklif verməsi onun tender təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

Tenderdə iştirak edən müəssisələr dərslik komplektlərinin məzmun, dil, üslub və bədii tərtibat (dizayn) baxımından keyfiyyətli hazırlanması, əsaslı redaktə və korrektəsi üçün məsuldur.

IV. Tenderdə İddiaçı statusu almaq istəyənlər elan dərc olunduğu gündən **20 sentyabr 2017-ci il** tarixə kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;
- İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- Dövlət qeydiyyatı haqqında şəhadətnamənin notariat qaydasında 2017-ci ildə təsdiq edilmiş surəti;
- Hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının notariat qaydasında 2017-ci ildə təsdiq edilmiş surəti;
- Hüquqi şəxsin nizamnaməsinin notariat qaydasında 2017-ci ildə təsdiq edilmiş surəti;
- Vergi və sair icbari ödənişlərə dair borclarının olub-olmaması haqqında vergi orqanları tərəfindən verilmiş arayış (sənədlərin təqdim edildiyi tarixə);
- Son bir ildəki maliyyə dövriyyəsi haqqında bank tərəfindən verilmiş arayış və bank rekvizitləri;
- Son bir ildəki maliyyə vəziyyətini əks etdirən və vergi orqanları tərəfindən təsdiq olunmuş vergi bəyannaməsi;
- Nəşr işləri sahəsindəki təcrübəsi barədə məlumat;
- Müəssisənin işçiləri və avadanlıqları haqqında məlumat;

- Sənədlər təqdim olunan vaxta Dövlət Sosial Müdafiə Fonduna verilmiş hesabatın surəti və Dövlət Sosial Müdafiə Fondunun arayışı;
- Məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat.

**Qeyd:**İddiaçı təqdim etdiyi sənədlərin, o cümlədən ixtisas göstəricilərinə dair məlumatların doğruluğuna görə məsuliyyət daşıyır. Tenderin Əsas şərtlər toplusunun təqdim edilməsindən sonra onun izahı ilə bağlı satınalan təşkilat iddiaçılar ilə görüş keçirə bilər.

**V.** Tenderdə hər bir lot üzrə iştirak haqqı ödənilir.
İştirak haqqı aşağıdakı kimi müəyyən edilmişdir:

| | | |
|---|---|---|
| I lot üzrə | - | 50.00 manat (əlli manat) |
| II lot üzrə | - | 50.00 manat (əlli manat) |
| III lot üzrə | - | 50.00 manat (əlli manat) |
| IV lot üzrə | - | 50.00 manat (əlli manat) |
| V lot üzrə | - | 50.00 manat (əlli manat) |
| VI lot üzrə | - | 50.00 manat (əlli manat) |
| VII lot üzrə | - | 50.00 manat (əlli manat) |
| VIII lot üzrə | - | 50.00 manat (əlli manat) |
| IX lot üzrə | - | 50.00 manat (əlli manat) |
| X lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XI lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XII lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XIII lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XIV lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XV lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XVI lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XVII lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XVIII lot üzrə | - | 50.00 manat (əlli manat) |
| XIX lot üzrə | - | 50.00 manat (əlli manat) |

**İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:**

Bakı şəhəri, Az 1008, Xətai prospekti, 49, Azərbaycan Respublikası Təhsil Nazirliyi, VÖEN 1500046011, DXA, VÖEN: 1401555071, kod 210005, müxbir hesab AZ41NABZ01360100000000003944, S.W.I.F.T.-CTREAZ22, hesab № AZ30CTRE00000000000002168501 Fond 7 Büdcə gəlirlərinin təsnifatı 142340 sair daxil olmalar.

İştirakçıların iddiaçı statusu almaq üçün satınalan təşkilata ödədikləri iştirak haqqı heç bir halda geri qaytarılmır.

**VI.** İddiaçılar Əsas şərtlər toplusunda qeyd olunan bütün lotlar və ya istədiyi lot üzrə tenderdə iştirak edə bilərlər. İddiaçılar hər bir lot üzrə yalnız bir tender təklifi verə bilər.

**VII.** Hər bir lot (lotlar) üzrə azı üç təklif təqdim olunduqda tender proseduru baş tutmuş hesab edilir. Üçdən az təklif daxil olan lot üzrə tender proseduru baş

tutmamış elan edilir, satınalan təşkilat həmin lot üzrə tenderin davamından imtina edir və təqdim olunan tender təklifləri açılmadan geri qaytarılır.

**VIII.** Məzmun (keyfiyyət) və maliyyə (qiymət) təklifləri ayrı-ayrı zərflərdə (qutularda) və eyni tarixdə təqdim olunmalıdır. Tender təklifləri (məzmun və qiymət) zərflər açıldığı gündən sonra 90 (doxsan) bank günü qüvvədə qalır.

Məzmun (keyfiyyət) təklifi aşağıdakılardan ibarətdir:

- Təklifin təqdimat vərəqəsi;
- Dərslik komplektinin son çap versiyasından tam həcmdə olan 5 (beş) nüsxə 70x100 1/16 formatda olan maketi (termoyapışqanla cildlənmiş şəkildə, tam rəngli cilddə);
- dərslik komplektinin rus və gürcü dillərinə tərcüməsi son çap versiyasında, 1 çap vərəqi həcmində (3-18 səhifələr), cildi ilə birlikdə, 1 (bir) nüsxə nümunə maketi (maketləri) şəklində;
- İddiaçı məzmun təklifi ilə birlikdə həmin lot üzrə müəllifin (müəlliflərin) məlumat vərəqəsini (səhifə 32) ayrı zərfdə imzalanmış, üzərində qeydlər (müəllif (müəlliflərin) həmin dərslik komplektinin tenderə çıxarılması barədə rəsmi razılığı olmaqla) aparmaqla təqdim etməlidir.Həmçinin tenderə təqdim olunan dərslik komplektinin ən azı mətninin müəlliflik hüququ müəlliflərə məxsus olduğundan onların bu hüquqlarının qorunması və müəllif qonorarının ödənilməsi iddiaçılar və müəlliflər arasında bağlanan müqavilə əsasında ümumi maliyyələşmə hesabına tənzimlənməlidir. **Bu barədə nəşriyyat və müəllif (müəlliflər) arasında bağlanmış müddətsiz müqavilənin surəti də tenderə təqdim edilməlidir.**
  - Məzmun (keyfiyyət) təklifi üzərində satınalan təşkilatın və iddiaçının adı, ünvanı, lotun nömrəsi qeyd olunmuş, bağlı, imzalanmış və möhürlənmiş zərflərdə (qutularda) təqdim olunmalıdır.

**IX.** Qiymət (maliyyə) təklifi aşağıdakılardan ibarətdir:

- Qiymət (maliyyə) təklifinin təqdimat vərəqəsi;
- İddiaçının qiymət (maliyyə) təklifi;
- Təklifin dəyərinin 1 (bir) %-i həcmində olan bank təminatı (səlahiyyətli bank tərəfindən verilmiş bu təminatın qüvvədə olma müddəti tender təkliflərinin qüvvədə olma müddətindən azı 30(otuz) bank günü çox olmalıdır);
- İddiaçı iştirak etdiyi hər bir lot üzrə dərslik komplektinin nəşrinə dair qiymət (maliyyə) təklifini «Dövlət satınalmaları haqqında» Qanunun və Əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq 1 (bir) ədəd «Əsli» və bir ədəd «Surəti» ayrı-ayrı zərflərdə olmaqla ümumi bir zərfdə təqdim edir. Hər bir zərf üzərində satınalan təşkilatın və iddiaçının adı, ünvanı, lotun nömrəsi qeyd olunmaqla iddiaçı tərəfindən imzalanmalı, möhürlənməlidir.

**X.** İddiaçılar məzmun (keyfiyyət) və maliyyə (qiymət) təkliflərinin zərflərini (bağlamalarını) **03 oktyabr 2017-ci il saat 18:00-dək** tender komissiyasına təqdim etməlidirlər.

Məzmun (keyfiyyət) və maliyyə (qiymət) təklifləri olan zərflərin (bağlamaların) açılışı **04 oktyabr 2017-ci il tarixdə, saat 15:00-da** Təhsil Nazirliyində keçirilir (İddiaçıların nümayəndələri tender iclasında iştirak edə bilərlər).

**XI.** Bütün tender sənədləri Azərbaycan dilində tərtib olunmalıdır.

İşin icrasının başlanması tarixi – satınalma müqaviləsi imzalandığl gündən

İşin yerinə yetirilməsi vaxtı – satınalma müqaviləsi imzalandığı gündən 1 (bir) ay müddətində.

**XII.** İxtisas göstəriciləri və texniki şərtlərə cavab verən, məzmun qiymətləndirilməsi üzrə keçid balını (dərslik üzrə azı 80 bal, müəllim üçün metodik vəsait üzrə azı 32 bal) toplayan ən sərfəli (aşağı) qiymət təklif etmiş iddiaçı "Bal" sistemi ilə aparılan ümumi qiymətləndirmənin yekun nəticəsinə uyğun olaraq tenderin qalibi olur.

Əlavə məlumat üçün bu ünvana müraciət etmək olar:
Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı şəhəri, Xətai prospekti 49, II mərtəbə, 203-ci otaq, tender üzrə əlaqələndirici şəxs Aynurə Novruz qızı Həsənova

Əlaqə telefonları: İş: 599-11-55 (əlavə 5219)
599-11-55 (əlavə 5126)

Faks: 496-06-47
e-mail: aynure.hesenova@edu.gov.az

**Tender komissiyası**